# Azərbaycanla Qazaxıstan dost və qardaş ölkələrdir

**Azərbaycanın müstəqillik əldə etməsindən sonra xarici siyasət kursunda mühüm əhəmiyyət verdiyi qardaş ölkələrdən biri Qazaxıstandır. Bu iki ölkəni vahid milli kök, dil və mədəniyyət qohumluğu, adət və ənənələr birləşdirir. Azərbaycanda həmişə bu ölkəyə və onun mədəniyyətinə, bizim kimi sadə və zəhmətkeş insanlarına böyük maraq olmuşdur.**

Müstəqillik illərində Qazaxıstan mühüm nailiyyətlər əldə edərək regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir. Hazırda milli özünüdərk, ölkədəki bütün xalqlar arasında birlik və bərabərliyin təmin olunması və qorunması, elm və inkişaf Qazaxıstan dövləti üçün prioritetdir. Rəsmi mənbələrin məlumatına görə, Türk dünyasının böyük oğlu Nursultan Nazarbayevin birbaşa rəhbərliyi ilə qardaş ölkədə hökumətin hədəfi 2050-ci ilə qədər dünyanın inkişaf etmiş 30 iqtisadiyyatı sırasına düşməkdir. Bunun üçün yanacaq-energetika, turizm, ticarət, təhsil, səhiyyə, nəqliyyat və logistika daxil olmaqla, səkkiz əsas istiqamət üzrə intensiv iş aparılır.



Hər iki respublikanın dövlət müstəqilliyinə qovuşması qarşılıqlı siyasi və iqtisadi, mədəni münasibətlərdə yeni üfüqlər açmışdır. Buna münbit zəmin yaratmaq məqsədilə iki ölkə arasında diplomatik münasibətlər 1992-ci il avqustun 30-da qurulmuşdur. Qazaxıstanın Azərbaycanda səfirliyi 1993-cü il yanvarın 9-da, Azərbaycanın Qazaxıstandakı səfirliyi isə 2004-cü il martın 1-də fəaliyyətə başlamışdır.

Müstəqillik dönəmində iki ölkə arasında 100-dən artıq sənəd, həmçinin "Azərbaycan və Qazaxıstan prezidentlərinin Birgə Bəyannaməsi" (2017) imzalanıb. Bu sənədlər, həmçinin müntəzəm surətdə keçirilən yüksək səviyyəli ikitərəfli görüşlər, səmərəli parlamentlərarası əlaqələr ölkələrimizin müasir mərhələdə yüksək etibara və etimada əsaslanan tərəfdaşlığının dərinləşməsinə və genişlənməsinə xidmət edir.

Müstəqillik illəri ərzində hər iki ölkə böyük güclərin geosiyasi, iqtisadi və strateji maraqlarının kəsişdiyi Orta Asiya və Xəzər dənizi hövzəsində ən mühüm dövlətlər səviyyəsinə yüksəlmişlər. Ortaq dil, din, mədəniyyətə məxsus hər iki ölkə türkdilli xalqların inteqrasiyası yolunda da bərabər addımlayır.

Müsəlman-türk dünyasının yetirdiyi ən görkəmli tarixi şəxsiyyətlərdən biri olan Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Bakıya 6 dəfə səfər etməsi də siyasi əlaqələrin isti və yüksək səviyyədə olmasının bariz nümunəsidir. Zaman göstərdi ki, Nazarbayev, doğrudan da, yüksək idarəetmə bacarığına malik, milli dəyərlərə bağlı, el adətlərinə böyük hörmətlə yanaşan, xalqın işıqlı gələcəyi naminə yaşayıb-yaradan liderdir. Onun həyata keçirdiyi məqsədyönlü islahatlar və uzaq hədəflərə hesablanmış qərarları ötən dövr ərzində qazax xalqının ümummilli və dövlətçilik maraqlarına xidmət edib.

Qarşılıqlı siyasi-diplomatik münasibətlərin inkişafında mühüm addımlar olan 1996-cı ilin sentyabrında Nursultan Nazarbayevin müstəqil Azərbaycana, 1997-ci ilin iyununda ulu öndər Heydər Əliyevin müstəqil Qazaxıstana gerçəkləşən səfərləri sonralar müntəzəm xarakter almışdır. Qarşılıqlı etimada əsaslanan siyasi əlaqələr Prezident İlham Əliyevin hakimiyyəti illərində daha müntəzəm şəkildə uğurla davam etdirilir.



Azərbaycanın uğurla həyata keçirilən xarici siyasət kursunda Qazaxıstana xüsusi önəm verilməsi də təsadüfi deyil. Qazaxıstan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı kimi çıxış etməklə qalmır, həm də Nursultan Nazarbayevin şəxsində bu problemin həlli istiqamətində qəti addımlar atan, beynəlxalq yüksək kürsülərdən Azərbaycan xalqının haqq işini həmişə cəsarətlə müdafiə edən bir liderə malikdir. Təsadüfi deyil ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Prezident Nursultan Nazarbayev Azərbaycanın ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Ermənistanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü zamanı irəli sürülən - bu üzvlüyün Azərbaycanın ərazi bütövlüyünə zərər gətirməməsi şərtinin müəllifi də məhz Nursultan Nazarbayev olmuşdur. Bu quruma üzv ölkələrin dövlət başçılarının 2014-cü ildə Moskva sammitində onun nümayiş etdirdiyi bu prinsipial mövqe Dağlıq Qarabağda istehsal olunan məhsulların Avrasiya İqtisadi Birliyi ölkələrinə ixracının əngəllənməsi yolunda çox mühüm bir addım olmuşdur.

Eyni zamanda Xəzərin müqəddəratı Azərbaycan və Qazaxıstan prezidentlərinin bütün görüşlərində başlıca müzakirə predmeti olmuşdur. Qazaxıstanla Azərbaycan enerji, tranzit, logistika, həmçinin sənaye, kənd təsərrüfatı sahələrində, habelə Xəzərlə bağlı yaxından əməkdaşlıq edirlər. Nursultan Nazarbayevin xalqa son müraciəti zamanı logistikanın həm ölkə daxilində inkişaf etdirilməsinin, həm də bu məsələdə Azərbaycanla əməkdaşlığı genişləndirməyin əhəmiyyətinə xüsusi diqqət çəkmişdir.



Hər iki ölkə TRASEKA layihəsi çərçivəsində Asiya-Qafqaz-Avropa nəqliyyat dəhlizi və Böyük İpək Yolunun bərpası layihələrində yaxından əməkdaşlıq edir. Hər iki ölkənin İpək Yolu üzərində yerləşməsi onların nəqliyyat sahəsində əməkdaşlıq imkanlarını artırır. Qazaxıstan və Azərbaycan qarşılıqlı surətdə bir-birinin üzərindən qurulan nəqliyyat xətləri vasitəsilə Şərq ölkələri və dünya bazarına çıxış qapıları əldə etmişdir.

2007-ci ildə Qazaxıstanın rəsmən qoşulduğu Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri iki ölkə arasında karbohidrogen məhsullarının beynəlxalq bazarlara nəqli sahəsində intensiv əməkdaşlığın möhkəmlənməsində müstəsna rol oynamışdır və öz əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır. Hazırda Qazaxıstan öz neftini maneəsiz olaraq Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə Avropaya nəql edir. "Tengiz" quru yatağından hasil edilən neft dəmir yolu vasitəsilə Qazaxıstanın Aktau limanına, daha sonra isə oradan tankerlərlə Bakıya nəql olunur və BTC boru kəməri vasitəsilə ixrac edilir, həmçinin dəmir yolu ilə Gürcüstanın Qara dəniz limanlarına göndərilir.

Bakı Beynəlxalq Dəniz Limanı, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, eləcə də Qazaxıstanda həyata keçirilən dəmiryolu layihələri və limanların genişləndirilməsi iki ölkənin qarşılıqlı iqtisadi və beynəlxalq əlaqələrini yeni mərhələyə yüksəltmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışında Qazaxıstan tərəfinin iştirakı, habelə qardaş ölkənin Azərbaycanın təşəbbüskarı olduğu Trans-Avrasiya Super İnformasiya Magistralı (TASIM), TANAP və TRANSXƏZƏR enerji və nəqliyyat dəhlizi layihələrinə dəstək verməsi Bakı ilə Astana arasında strateji əməkdaşlığın yeni göstəriciləridir.

İki ölkə münasibətlərinin bütün sahələr üzrə dinamik inkişaf səviyyəsinin qorunub saxlanmasında 1999-cu ildə Azərbaycan və Qazaxıstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın yaradılmasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Beləliklə, iqtisadi sahədə əsaslı müqavilə-hüquqi baza yaradılmış və indiyədək bu sahədə 20-dən çox ikitərəfli sənəd imzalanmışdır.

Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin həcmi artmaqda davam edir. 2017-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2016-cı illə müqayisədə 14,2 faiz artaraq 142,09 milyon dollar təşkil etmişdir. 2018-ci ilin yanvar-sentyabr aylarında qarşılıqlı ticarət dövriyyəsi 169,8 milyon dollar təşkil etmişdir. Bu göstərici 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 65,6 faiz çoxdur. Azərbaycanın ixracı 35,96 milyon dollar (65,1 faiz çox), idxalı isə 133,84 milyon dollar (müvafiq dövrlə müqayisədə 65,8 faiz çox) təşkil etmişdir. Ölkələrimiz arasında iqtisadi əlaqələr təkcə ticarətlə məhdudlaşmır. Azərbaycanlı sərmayədarlar Qazaxıstan bazarına maraq göstərir və bu ölkənin iqtisadiyyatına fəal sərmayə yatırırlar. Azərbaycanda da Qazaxıstan şirkətləri uğurla fəaliyyət göstərir. Burada sərmayə qoyuluşlarının ümumi həcmi 200 milyon dollara yaxındır. Hazırda ölkəmizin milli təhlükəsizliyinin əhəmiyyətli tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin təminatında da Azərbaycanın ən etibarlı tərəfdaşı məhz Qazaxıstandır.

Azərbaycan-Qazaxıstan münasibətləri siyasi-iqtisadi sferada olduğu kimi, beynəlxalq münasibətlər müstəvisində də dinamik inkişaf edir. İki qardaş ölkə BMT, AŞPA, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKSOY kimi təşkilatlar çərçivəsində qarşılıqlı şəkildə bir-birinin maraqlarını müdafiə etmək üçün çevik mexanizmə malikdir.

Qazaxıstan 2017-2018-ci illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən Azərbaycan ona səs verən ilk dövlətlərdən biri olub. Azərbaycan Astanada "EXPO-2017" beynəlxalq ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü də dəstəkləyənlərin birincilərindən olub.

Hazırda hər iki qardaş dövlətin geostrateji mövqeyə, zəngin enerji resurslarına malik olmaları, vacib Şərq-Qərb, Şimal-Cənub enerji və kommunikasiya dəhlizləri üzərində yerləşməsi onların siyasi və iqtisadi çəkisini daha da artırır. Təsadüfi deyil ki, xalqımızın yaxın dostu, türk dünyasına böyük sayğı və məhəbbət bəsləyən Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev qarşılıqlı münasibətlərdən bəhs edərkən möhkəm əminliklə bildirmişdir ki, "Biz təkcə strateji tərəfdaş yox, həm də dost və qardaş ölkələrik".

Ölkələrimiz arasında mədəniyyətin müxtəlif sahələrində sıx əlaqələr mövcuddur. Bu da təbii bir haldır. Bakı Dövlət Universitetində qazax dili, tarixi və mədəniyyəti Mərkəzi artıq neçə illərdən bəridir ki, fəaliyyət göstərir. Bakıda Qazax xanlığının yaradılmasının 550 illiyinə həsr edilmiş nüfuzlu beynəlxalq konfrans keçirilmiş, paytaxt Bakının küçələrindən birinə böyük Abay Kunanbayevin adı verilmiş və onun barelyefi açılmış, qardaş xalqlarımızın tanınmış şəxsiyyətlərinin və yazıçılarının əsərlərinin hər iki dilə tərcümə edilməsi müntəzəm xarakter almışdır. Həmçinin Bakı Dövlət Universiteti və Əl-Fərabi adına Qazaxıstan Milli Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Bu gün Azərbaycanda Nursultan Nazarbayevə böyük məhəbbət bəslənilir. Təsadüfi deyil ki, ölkəmizdə onun haqqında kitab və məqalələr nəşr edilir. Buna yeni misal olaraq, "Nursultan Nazarbayev. Həyat yolu" və "Avrasiyanın ürəyində" kitablarını göstərə bilərik. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Nursultan Nazarbayev. Həyat yolu" kitabına yazdığı ön sözdə bu gün Qazaxıstanda xalqlar və millətlər arasında hökm sürən möhkəm sülhü, sabitlik, multikultural dəyərlər daşıyan funksional bir cəmiyyətin formalaşmasını Nazarbayevin müdrik siyasətinin nəticəsi kimi dəyərləndirir. Həmçinin qeyd edir ki, bu ölkədə 130-dan çox xalqın nümayəndələri, o cümlədən azərbaycanlılar vətəndaş sülhü və ümummilli həmrəylik şəraitində yaşayır və fəaliyyət göstərirlər.

Bu gün Azərbaycan və Qazaxıstan respublikaları dünyanın nüfuzlu, xoş gələcəyi olan dövlətləri sırasında özünəməxsus, əhəmiyyətli yer tuturlar. Onların hər ikisinin çiçəklənməsi və daha da inkişaf etməsi bütövlükdə türk dünyasının qüdrət və nüfuzunun artması ilə yanaşı, dünya ölkələri xalqları arasında da əmin-amanlığın və iqtisadi tərəqqinin güclənməsinə xidmət edəcəkdir.

**Atamoğlan MƏMMƏDLİ.**